# İSTİLİKXANA SIĞORTASININ
# ƏSAS QAYDALARI

**B A K I  2010**

## İSTİLİKXANA SIĞORTASININ ƏSAS QAYDALARI

## ÜMUMİ MÜDDƏALAR

Bu qaydalar Azərbaycan Respublikasının «Sığorta fəaliyyəti haqqında» Qanununa, Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

### 1. SIĞORTA TƏMİNATININ ƏHATƏ DAİRƏSİ, SIĞORTA OBYEKTİ, SIĞORTA PREDMETİ VƏ SIĞORTA SİNİFİ

1.1. Bu sığorta qaydaları ilə dolu düşməsi nəticəsində istilikxanalara və istilikxanalarda yetişdirilən məhsullara dəyən ziyan və zərərlərə sığorta məbləği daxilində təminat verilir.

1.2. sığorta obyekti - vətəndaşlara və hüquqi şəxslərə mülkiyyət formasından asılı olmayaraq məxsus istilikxanalarla bağlı onların əmlak mənafeləridir.

1.3. sığorta predmeti - vətəndaşlara və hüquqi şəxslərə mülkiyyət formasından asılı olmayaraq məxsus istilikxanalar və istilikxanalarda yetişdirilən məhsullar.

1.4. sığorta sinifi – sığorta obyektinə görə əmlak sığortasına aid istilikxana sığortası.

### 2. SIĞORTA MƏBLƏĞİNİN ƏHATƏ DAİRƏSİ

Sığorta məbləği, aşağıda göstərilənlərin ümumi dəyərindən ibarətdir:

2.1. İstilikxanaların, örtük və digər quraşdırma materiallarının montaj xərcləri də daxil olmaqla ümumi dəyəri;

2.2. İstilikxana konstruksiyasının, hazırlanması və montajı üçün ödənilən haqqlar da daxil olmaqla ümumi dəyəri;

2.3. Qızdırıcı, hava tənzimləyici, suvarma qurğuları və istilikxanaların digər bu kimi əsas cihaz və avadanlıqlarının dəyəri;

2.4. İstilikxanalarda becərilən bitkilərin məhsullarının yetişdikləri zaman nəzərdə tutulan təxmini məbləğləri (əgər sığorta müddəti ərzində bir neçə dəfə məhsul götürülürsə, həmin məhsulların nəzərdə tutulan məbləğlərinin cəmi).

## 3. ƏLAVƏ SIĞORTA HAQQI MÜQABİLİNDƏ SIĞORTA TƏMİNATINA DAXİL EDİLƏN ZƏRƏRLƏR

3.1. Aşağıdakı hadisələr nəticəsində dəyən zərərlər, yalnız əlavə sığorta haqqı ödəməklə sığorta təminatına daxil edilə bilər:

3.1.1. Tətil, lokaut və xalq hərəkatları;
3.1.2. Üçüncü şəxslərin qərəzli hərəkətləri;
3.1.3. Terror;
3.1.4. Yanğın, ildırım, partlayış;
3.1.5. Qasırğa;
3.1.6. Zəlzələ və vulkan;
3.1.7. Qar ağırlığı;
3.1.8. Şaxta;
3.1.9. Sel və su basması;
3.1.10.İstilikxananın daxilində baş verən su basması;
3.1.11.Torpaq sürüşməsi;
3.1.12.Duman;
3.1.13.Avtomobil, su və hava nəqliyyat vasitələrinin çırpılması;
3.2. Aşağıda göstərilən zərərlər, müqavilədə təminat verilən hadisələrlə əlaqədar olsa belə sığorta təminatının əhatə dairəsinə daxil deyildir və belə itkilərə, yalnız əlavə müqavilə bağlanması şərtilə təminat verilə bilər:
3.2.1. Təminat verilən hadisənin səbəb olduğu keyfiyyət itkisi;
3.2.3. Fəaliyyətin dayanması və ya zəifləməsinin səbəb olduğu gəlir itkisi;
3.2.3. Dağıntıların aradan qaldırılması üçün çəkilən xərclər.

## 4. SIĞORTA TƏMİNATINA DAXİL OLMAYAN ZƏRƏRLƏR (İSTİSNALAR)

Aşağıdakı hallar nəticəsində dəyən ziyan və zərərlər sığorta təminatına daxil edilmir:
4.1. İstilikxanaların düzgün layihələşdirilməməsi və ya layihənin düzgün tətbiq edilməməsi;
4.2. İstilikxanalar qurulduğu zaman keyfiyyətsiz materiallardan istifadə edilməsi və ya işin keyfiyyətsiz icrası;
4.3. Müharibə, hər cür hərbi hərəkətlər, istila, xarici düşmən basqınları, (müharibə elan edilib-edilməməsindən asılı olmayaraq), daxili münaqişə, ixtişaş, üsyan, qiyam və bunlarla əlaqədar həyata keçirilən inzibati və hərbi tədbirlər;
4.4. Nüvə partlayışı, radiasiya və radioaktiv çirklənmə və bunlarla əlaqədar həyata keçirilən inzibati və hərbi tədbirlər;
4.5. Səlahiyyətli orqanların sığortalı məhsul və ərazidən istifadə etməsi;
4.6. Sığortalının özünün və ya hərəkətlərinə görə məsuliyyət daşıdığı şəxslərin qəsdən edilən hərəkətləri və ya kobud səhvləri.

## 5. AZADOLMA MƏBLƏĞİ (SIĞORTA ÖDƏNİŞİNDƏN QİSMƏN AZADOLMA)

Tərəflər müəyyən olunmuş bir məbləğdə və ya sığorta məbləğinin müəyyən bir faizinə qədər olan zərərlərin və yaxud dəymiş zərərin müəyyən bir hissəsinin sığortaçı tərəfindən ödənilməyəcəyini razılaşdıra bilərlər.

Bu formada müəyyənləşdirilən azadolma məbləği sığorta şəhadətnaməsində qeyd olunur.

**6. SIĞORTANIN MÜDDƏTİ, TƏMİNATIN BAŞLANMASI VƏ SONA ÇATMASI**

Sığorta təminatı hər bir bitki üçün, həmin bitkinin şitil və ya calaqlarının istilikxanalarda əkilməsi dövründən başlayır və məhsulun toplanılmasıyla sona çatır. Digər bütün hallarda isə sığorta təminatı, başqa bir şərt nəzərdə tutulmayıbsa, şəhadətnamədə başlanma və sona çatma tarixləri kimi göstərilən tarixlərdə gecə saat 24.00-da başlayır və saat 24.00-da sona çatır.

**7. SIĞORTA HAQQININ ÖDƏNİLMƏSİ VƏ SIĞORTA MÜQAVİLƏSİNİN QÜVVƏYƏ MİNMƏSİ**

7.1. Sığorta haqqının birdəfəlik və ya hissə-hissə ödənilməsi razılaşdırıla bilər.

Sığorta haqqı (onun birinci hissəsi) sığorta şəhadətnaməsi təqdim edildiyi zaman (qalan hissələr isə sığorta şəhadətnaməsində göstərilən müddətlərdə) ödənilir. Başqa razılaşma olmadığı hallarda, sığorta haqqı və ya birinci hissə vaxtında ödənilməsə, sığorta şəhadətnaməsi təqdim edilmiş olsa da sığortaçının məsuliyyəti başlamır və bu şərt sığorta şəhadətnaməsində qeyd olunur.

7.2. Sığorta haqqının hissələrlə ödəniləcəyi qərara alınmış olduğu hallarda, haqqların ödənilmə vaxtları, məbləği vaxtında və razılaşdırılmış həcmdə həyata keçirilməzsə, sığortaçı yazılı şəkildə sığortalıya bunu bildirir. Sığortalı, sığorta haqqı hissələrindən birini şəhadətnamədə göstərilən və ya yazılı şəkildə ona bildirilən tarixdən etibarən 15 (on beş) gün müddətində ödəməzsə, sığorta təminatı dayandırılır. Sığorta haqqı borcu, sığorta hadisəsinin baş verməməsi şərti ilə, təminatın dayandırıldığı müddət ərzində ödənilərsə, təminat dayandırıldığı tarixdən davam etdirilir. Sığorta haqqı borcu, sığorta təminatının dayandırıldığı tarixdən etibarən 15 (on beş) gün müddətində ödənilməzsə, sığorta müqaviləsi heç bir xəbərdarlıq edilmədən öz-özlüyündən etibarsız sayılır.

7.3. Sığorta hadisəsi baş verdiyi zaman sığortaçı tərəfindən verilməli olan ödəniş məbləğindən vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqları məbləği çıxıla bilər.

7.4. Sığorta müqaviləsinin bu şərtlərə əsasən ləğv edildiyi hallarda, sığorta müqaviləsinin qüvvədə olduğu müddətin sığorta haqqı gün hesabı ilə hesablanır və artıq qalan məbləğ (əgər varsa) sığortalıya qaytarılır.

**8. SIĞORTALININ MÜQAVİLƏ BAĞLANDIĞI ZAMAN VƏZİFƏLƏRİ**

8.1. Sığortaçı sığorta müqaviləsini sığortalının təklifdə, təklif yoxdursa sığorta şəhadətnaməsində və ya əlavələrində göstərilmiş məlumatlara əsasən bağlayır. Həmin məlumatlar aşağıdakıları əhatə etməlidir:

- sığortalının adı və soyadı;

- sığortalının hüquqi statusu;
- sığortalının ünvanı;
- sığorta olunacaq istilikxanaların ölçüləri və yerləşdiyi ərazi (rayon, kənd);
- istilkxanalardakı şüşələrin ölçüləri, ümumi sayı və dəyəri;
- konstruksiya dəyəri;
- istilikxanalarda mövcud olan və ya sığorta müddəti ərzində əkiləcək bitkilərin növü, əkiləcəyi və ya şitil ediləcəyi tarix, şitillərin sayı;
- istilikxanalarda mövcud olan və ya sığorta müddəti ərzində əkiləcək məhsulların tamamilə toplanacağı tarix, nəzərdə tutulan məhsulların təxmini miqdarı və məbləği;
- istilikxana və ya məhsulun başqa sığorta şirkətində sığorta olunub olunmaması.

8.1.1. Sığortalının məlumatı yalan və yaxud yarımçıq olarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 (bir) ay müddətində müqaviləni ləğv edə və ya müqaviləni davam etdirərək həmin vaxta aid sığorta haqqı fərqini tələb edə bilər. Sığortalı 5 (beş) gün müddətində sığorta haqqı fərqi kimi tələb olunan məbləği qəbul etmədiyini bildirərsə, müqavilə ləğv edilir.

Ləğv etmənin hüquqi qüvvəyə mindiyi vaxta qədər keçən müddətin sığorta haqqı gün hesabı ilə hesablanır və artıq qalan məbləğ (əgər varsa) geri qaytarılır.

8.1.2. Sığortalının hərəkətinin qəsdən edilmədiyi hallarda sığorta hadisəsi, sığortaçı vəziyyəti öyrənməmişdən əvvəl və ya müqaviləni ləğv etməyi tələb edə biləcəyi müddətdə və yaxud bu təklifin hüquqi qüvvəyə minməsi üçün lazım olan müddət ərzində baş verərsə, sığorta ödənişi sığortalının məlumatına əsasən hesablanan sığorta haqqı ilə həqiqətdə hesablanmalı olan sığorta haqqı arasındakı fərqə uyğun olaraq ödənilir.

8.2. Vaxtında istifadə olunmayan ləğvetmə və sığorta haqqı fərqini tələb etmək hüququ qüvvəsini itirir.

8.3. Sığortaçı tərəfindən həyata keçirilən ləğvetmə, bu haqda sifarişli məktubla sığortalıya məlumat göndərildiyi tarixdən 15 (on beş) gün sonra saat 24.00-da, sığortalı tərəfindən həyata keçirilən ləğvetmə isə, bu haqda sifarişli məktubla sığortaçıya məlumat göndərildiyi tarixdən bir gün sonra saat 24.00-da hüquqi qüvvəyə minir.

**9. SIĞORTA MÜDDƏTİ ƏRZİNDƏ SIĞORTALININ MƏLUMAT VERMƏK VƏZİFƏLƏRİ**

9.1. Müqavilə imzalandıqdan sonra sığorta olunmuş əmlak və ya məhsulların təklifdə, təklif yoxdursa, sığorta şəhadətnaməsində və ya onun əlavələrində göstərilən yeri, vəziyyəti və ya növü sığortaçının razılığı olmadan dəyişdirilərsə, sığortalı maksimum 5 (beş) gün müddətində bu dəyişiklik haqqında sığortaçıya məlumat verməlidir.

9.2. Dəyişikliyin mahiyyəti sığortaçı tərəfindən öyrənildikdən sonra sığortaçı, 10 (on) gün müddətində müqaviləni ləğv edə bilər və ya əlavə sığorta haqqı tələb etməklə müqaviləni davam etdirə bilər.

Sığortalı, 5 (beş) gün müddətində sığorta haqqı fərqi kimi tələb olunan məbləğlə razılaşmadığını bildirərsə, sığortaçı müqaviləni 10 (on) gün müddətində ləğv edə bilər.

Ləğv etmənin hüquqi qüvvəyə mindiyi vaxta qədər keçən müddətin sığorta haqqı gün hesabı ilə hesablanır və artıq qalan məbləğ (əgər varsa) geri qaytarılır.

9.3. Vaxtında istifadə olunmayan ləğvetmə və ya sığorta haqqı fərqini tələb etmə hüququ etibarsız sayılır.

9.4. Sığorta olunmuş məhsulların təklifdə, təklif yoxdursa, sığorta şəhadətnaməsində və ya onun əlavələrində göstərilən yerinin, vəziyyətinin və ya növünün dəyişməsini öyrənən sığortaçı, sığorta müqaviləsinin heç bir dəyişiklik edilmədən qüvvədə qalmasına razı olduğunu bildirən hansısa bir hərəkət edərsə, ləğvetmə və ya sığorta fərqini tələb etmə hüququnu itirir.

9.5. Dəyişiklik hadisənin baş vermə ehtimalının azaldarsa və daha az sığorta haqqı alınmasını tələb edərsə sığortaçı, bu dəyişikliyin baş verdiyi tarixdən başlayaraq müqavilənin başa çatmasına qədər olan müddət üçün sığorta haqqını gün hesabı əsas götürülməklə hesablayır və fərqini sığortalıya qaytarır.

9.6. Dəyişiklik edildikdən sonra:

- sığortaçı vəziyyəti öyrənməmişdən əvvəl;
- sığortaçı müqaviləni ləğv etməyi tələb edə biləcəyi müddət ərzində;
- ləğv etmənin hüquqi qüvvəyə minməsi üçün lazım olan müddət ərzində sığorta hadisəsi baş verərsə sığorta ödənişi, sığortalının məlumatına əsasən hesablanan sığorta haqqı ilə həqiqətdə hesablanmalı olan sığorta haqqı arasındakı fərqə uyğun olaraq ödənilir.

9.7. Sığortaçı tərəfindən həyata keçirilən ləğvetmə, bu haqda sifarişli məktubla sığortalıya məlumat göndərildiyi tarixdən 15 (on beş) gün sonra saat 24.00-da, sığortalı tərəfindən həyata keçirilən ləğvetmə isə bu haqda sifarişli məktubla sığortaçıya məlumat göndərildiyi tarixdən bir gün sonra saat 24.00-da hüquqi qüvvəyə minir.

## ZƏRƏR VƏ ÖDƏNİŞ

### 10. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTAÇININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ

10.1. Hadisə baş verdiyi zaman sığortaçı və ya onun səlahiyyətli nümayəndələri sığorta olunan bitkiləri və ya əmlakı mühafizə etmək və zərərin miqdarını azaltmaq məqsədilə lazımi və müvafiq formalarda zərər çəkmiş istilikxanaya daxil ola bilərlər. Sığortaçının bu cür hərəkət etməsi onun öz üzərinə hansısa bir ödəniş öhdəliyi götürməsi və müqavilə hüquqlarının hansısa birindən imtina etməsi kimi başa düşülməməlidir.

10.2. Sığortaçı, zərərin miqdarı ilə əlaqədar sənədlər ona verildikdən sonra lazımi araşdırmaları ən geci 1 (bir) ay müddətində başa çatdıraraq zərər və ödənişin miqdarını müəyyənləşdirib sığortalıya bu barədə məlumat verməlidir.

### 11. SIĞORTA HADİSƏSİ BAŞ VERDİYİ ZAMAN SIĞORTALININ VƏZİFƏLƏRİ

Hadisə baş verdiyi zaman sığortalı:

11.1. Hadisənin baş verdiyi məlum olan tarixdən etibarən ən geci 3 (üç) gün müddətində sığortaçıya məlumat verməlidir;

11.2. Hadisə baş verməsindən mütəxəssis və ya ekspert yoxlaması aparılacağı vaxta qədər keçən müddət ərzində zərər çəkmiş bitkinin normal inkişaf etməsi üçün lazımi tədbirlər görməli və sığortaçı tərəfindən bu məqsədlə verilən təlimata imkan daxilində maksimum əməl etməlidir;

11.3. Mütəxəssis və ya ekspert yoxlaması keçirilənə qədər, məcburi hallar istisna olmaqla, zərər çəkmiş bitki və ya istilikxanayla əlaqədar, zərərin miqdarını müəyyənləşdirməyi çətinləşdirə və ya onun miqdarını artıra biləcək heç bir dəyişiklik etməməlidir;

11.4. Hadisə baş verdiyi zaman istilikxanada olan və daha çox zərər çəkmiş bir məhsulun yerinə mövsümə uyğun olaraq yeni bir məhsul əkmək istəyərsə, istilikxananın təmizlənərək təkrar əkin və ya calaq işlərinin aparılmasına razılıq almaq üçün sığortaçıya müraciət etməlidir;

11.5. Hadisənin baş vermə səbəblərini, zərərin miqdarını və dəlilləri müəyyənləşdirmək, eləcə də zərərin, təqsirkar üçüncü şəxslər tərəfindən ödənilməsi hüququndan istifadə edilməsi üçün lazım olan məlumat və sənədləri, sığortaçının tələbinə əsasən gecikdirmədən ona təqdim etməlidir;

11.6. Sığorta ödənişinin məbləği və zərərin təqsirkar üçüncü şəxslər tərəfindən ödənilməsi hüququndan istifadə etmə imkanlarının müəyyən edilməsi üçün sığortaçının və ya onun səlahiyyətli nümayəndələrinin sığorta hadisəsinin baş verdiyi yer, sığortalanmış məhsul və bunlarla əlaqədar sənədlər üzərində araşdırma və yoxlamalar aparmalarına icazə verməlidir.

## 12. SIĞORTA HADİSƏSİ ZAMANI SIĞORTALININ MÜHAFİZƏ VƏ XİLAS ETMƏ TƏDBİRLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ

Sığorta hadisəsi baş verdiyi zaman, sığortalı zərərin qarşısını almaq, miqdarını azaltmaq və ya təsir gücünü zəiflətmək üçün lazımi tədbirlər görməlidir.

Görülən bu tədbirlər və sığortaçının həyata keçirilməsini tələb etdiyi tövsiyyələr ilə əlaqədar çəkilən xərclər sığortaçı tərəfindən ödənilir.

Sığorta müqaviləsi, əmlakın dəyərindən az məbləğdə bağlandığı hallarda, müqavilədə başqa şərt nəzərdə tutulmayıbsa, sığortaçı həmin xərcləri sığorta olunmuş əmlakın sığorta məbləği ilə hadisə baş verən tarixdəki həqiqi dəyəri arasındakı nisbətə uyğun olaraq ödəyir.

## 13. ZİYAN VƏ ZƏRƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Sığorta olunmuş bitki və istilikxanalara dəyən zərərin miqdarı tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir.

13.1. Tərəflər zərərin miqdarı ilə əlaqədar razılığa gələ bilmədikdə, zərərin miqdarının müəyyən edilməsi üçün mütəxəssis və ya ekspertə müraciət edilməsi haqqında qərar qəbul edirlər. Bu zaman, zərərin miqdarı aşağıdakı prinsiplər əsasında müəyyən edilir və sığortaçıdan ödəniş tələb edildikdə, mütəxəssis və ya ekspertin zərərin miqdarı ilə əlaqədar rəyi, sığorta ödənişinin müəyyən edilməsi üçün əsas götürülür.

13.2. Tərəflər, mübahisənin həll edilməsi üçün mütəxəssis və ya ekperti birlikdə seçmək haqqında razılığa gələ bilməzlərsə, onda tərəflərdən hər biri ayrılıqda öz mütəxəssis və ya ekspertini təyin edir və bunu digər tərəfə bildirir. Tərəflərin mütəxəssis və ya ekspertləri tədqiqata başlamamışdan əvvəl, seçildikləri tarixdən 7 gün müddətində üçüncü bitərəf mütəxəssis və ya eksperti seçirlər. Bitərəf mütəxəssis və ya ekspert yalnız tərəflərin mütəxəssis və ya ekspertlərinin razılığa gələ bilmədikləri məsələlər haqqında ayrılıqda və yaxud tərəflərin mütəxəssis və ya ekspertləri ilə birlikdə rəy verə bilər. Mütəxəssis və ya ekspertlərin rəyləri tərəflərə eyni vaxtda bildirilir.

13.3. Tərəflərdən biri digərinin tərəfin məlumatından sonra 15 gün müddətində öz mütəxəssis və ya ekspertini təyin etməzsə, yaxud tərəflərin mütəxəssis və ya ekspertləri üçüncü bitərəf mütəxəssis və ya ekspertin seçilməsi haqqında 7 gün müddətində razılığa gələ bilməzlərsə, tərəflərin mütəxəssis və ya ekspertləri, habelə üçüncü bitərəf mütəxəssis və ya ekspert tərəflərdən birinin tələbi ilə hadisə baş verən ərazidəki mübahisələri həll etməyə aidiyyəti olan məhkəmə tərəfindən seçilir.

13.4. Məsələnin həlli üçün müştərək bir mütəxəssis və ya ekspert təyin edimişdirsə, həmin mütəxəssis və ya ekspert təyin olunduğu vaxtdan, digər hallarda isə üçüncü mütəxəssis və ya ekspert seçildiyi tarixdən etibarən ən geci üç ay müddətində və bütün hallarda hadisənin baş verməsindən sonra altı ay müddətində mütəxəssis və ya ekspertin rəyi elan edilməzsə, tərəflər zərərin miqdarını hər cür dəlillə sübut edə bilərlər.

13.5. Mütəxəssis və ya ekspertlərdən, iş bacarıqlarının lazımi səviyyədə olmamasına görə, onların kimliyinin öyrənilməsindən sonra 7 gün müddətində imtina oluna bilinər. Vaxtında istifadə edilməyən imtina hüququ etibarsız sayılır.

13.6. Mütəxəssis və ya ekspert vəfat edərsə, istefa verərsə və ya rədd edilərsə, onun yerinə eyni qaydada yeni mütəxəssis və ya ekspert seçilir və işi yarımçıq qaldığı yerdən davam etdirilir.

13.7. Sığortalının vəfat etməsi, seçdiyi mütəxəssis və ya ekspert səlahiyyətlərinə xitam verilməsinə səbəb ola bilməz.

13.8. Mütəxəssis və ya ekspert, zərərin miqdarının müəyyən edilməsi, sığortalanmış bitkilərin hadisə baş verdiyi andakı dəyərinin hesablanması üçün lazım olacaq qeydiyyat və sənədləri tələb edə və hadisə yerində tədqiqatlar apara bilərlər.

13.9. Mütəxəssis və ya ekspertlərin və ya üçüncü mütəxəssis və ya ekspert verəcəyi rəy qətidir və tərəflər buna əməl etməlidir.

Mütəxəssis və ya ekspert rəylərinə yalnız, rəyin real vəziyyətdən açıq aşkar fərqləndiyi hallarda və bu rəyin elan edildiyi tarixdən etibarən 7 gün müddətində hadisənin baş verdiyi ərazidəki iqtisadi mübahisələri həll etməyə aidiyyatı olan məhkəmə vasitəsilə etiraz oluna bilər.

13.10. Tərəflərdən hər biri öz mütəxəssis və ya ekspertinin xərclərini ödəyir. Üçüncü mütəxəssis və ya ekspert, habelə müştərək mütəxəssis və ya ekspertlərin xərclərini tərəflər bərabər şəkildə ödəyirlər.

13.11. Zərər məbləğinin müəyyən edilməsi, bu müqavilədə və qanunvericilikdə göstərilən hökm və şərtlərə, eləcə də onların tətbiq edilməsinə heç bir təsir göstərmir.

## 14. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI

14.1. Sığorta ödənişi hesablandığı zaman, sığortalı əmlakın hadisə baş verdiyi tarixdəki satış qiyməti əsas götürülür.

İstilikxananın şüşələri, konstruksiya, istilik, hava və su sistemi kimi istilikxananın əsas ünsürü hesab edilən cihaz və qurğular üçün şəhadətnamədə göstərilən sığorta məbləği, məhsul üçün isə məhsulun bir ədədinin və ya kiloqramının qiyməti əsas götürülür. Lakin bu zaman şüşənin dəyəri, onun sığortalanma dövründə mövcud olan satış qiymətindən, məhsulun qiyməti isə onun zərər tarixindəki yerli topdan satış qiymətindən çox olmamalıdır.

Zərər və itkinin ümumi məbləğindən, əgər varsa, sovtaj (istifadəyə yararlı hissə) çıxılır.

14.2. Şüşə qırıqlarının bitki olan ərazidən təmizlənməsi ilə əlaqədar çəkilən xərclərə görə ödəniləcək məbləğ, başqa şərt nəzərdə tutulmayıbsa, məhsul, şüşə və konstruksiyanın ümumi sığorta dəyərinin 10 %-i həcmində ola bilər.

14.3. Qismən dəyən zərərlərə görə veriləcək ödənişlərin məbləği, tam məhv olma zamanı ödəniləcək ödəniş məbləğindən çox ola bilməz.

## 15. TƏRƏFLƏR ARASINDA RAZILAŞDIRILMIŞ SIĞORTA MƏBLƏĞİ

Sığorta müqaviləsi imzalandığı zaman və ya sığorta müqaviləsi qüvvədə olduğu müddət ərzində, sığorta olunan qurğu, avadanlıq və sistemlərin dəyəri sığortalının və sığortaçının birlikdə seçdikləri mütəxəssis və ya ekspertlər tərəfindən müyyən olunduğu və tərəflərin onu qəbul etdiyi hallarda, hadisə baş verdiyi və ödəniş hesablandığı zaman qəbul edilmiş həmin məbləğ əsas götürülür və tərəflərdən heç birinin buna etiraz etmək hüququ yoxdur.

Mütəxəssis və ya ekspert xərclərini, razılaşdırılmış məbləğin müəyyən edilməsini tələb edən tərəf ödəyir.

## 16. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ

16.1. Sığortaçının cavabdehliyi sığortalı malların hamısı üçün ümumi sığorta məbləği müəyyən edilibsə bu məbləğ, sığortalı mallar, xüsusiyyətlərinə görə qrup və növlərə bölünübsə, bu maddə və növlərlə əlaqədar dəyərlərlə məhdudlaşır.

16.2. Məhsul bir neçə sığorta şirkətində sığorta olunduğu hallarda ödənişin məbləği hesablandıqdan sonra sığortaçı öz payına düşən məbləği ödəyir.

## 17. ÖDƏNİŞ MƏBLƏĞİNİN AZALDILMASI VƏ YA RƏDD EDİLMƏSİ

Sığortalı, hadisə baş verdiyi zaman öz vəzifələrini yerinə yetirməzsə və bu zərərin miqdarının artmasına səbəb olarsa, həmin artan məbləğ hesablanacaq ümumi ödəniş məbləğindən çıxılır.

Sığortalı, hadisənin baş verməsinə qəsdən şərait yaradarsa və ya zərərin miqdarını qəsdən artırmağa çalışarsa, sığorta müqaviləsində müəyyən edilmiş hüquqlarından məhrum olur.

Bu bölmədə göstərilən halların mövcudluğu sığortaçı tərəfindən sübut edilməlidir.

## 18. SIĞORTA ÖDƏNİŞİNİN NƏTİCƏLƏRİ VƏ SIĞORTAÇININ MƏSULİYYƏTİNİN SONA ÇATMASI

18.1. Sığortaçı, hesablanmış ödəniş məbləğini ən geci 1 (bir) ay müddətində ödəməlidir.

18.2. Sığortalının zərər vurulmasında təqsirkar şəxsə qarşı olan iddia hüququ ödənilmiş sığorta ödənişi məbləği müqabilində sığortaçıya keçir. Sığortalı, sığortaçının irəli sürəcəyi iddialarla əlaqədar lazımi məlumat və sənədləri mümkün olan ən qısa müddət ərzində təqdim etməlidir.

18.3. Sığorta hadisəsi nəticəsində tam məhv olma baş verdiyi hallarda sığorta müqaviləsi sona çatmış olur. Qismən zədələnmə baş verdiyi hallarda isə, sığorta məbləği, hadisənin baş verdiyi tarixdən etibarən verilmiş ödənişin məbləği həcmində azaldılır.

Sığorta məbləğinin qrup və ya növlərə ayrılmış olduğu hallarda da eyni qayda tətbiq edilir.

Sığorta məbləğinin azaldıldığı hallarda, həmin məbləğ, sığortalının təklifinə əsasən və həmin tarixdən etibarən gün hesabına görə hesablanacaq əlavə sığorta haqqı ödənilməsi şərti ilə əvvəlki məbləğə qədər artırıla bilər.

18.4. Qismən zədələnmə baş verdiyi zaman tərəflərin müqaviləni ləğv etmək hüququ vardır. Sığortaçı ləğvetmə hüququndan yalnız ödəniş verdikdən sonra istifadə edə bilər.

18.5. Ləğv etmənin hüquqi qüvvəyə mindiyi tarixə qədər keçən müddətin sığorta haqqı, gün hesabı ilə hesablanır və artıq qalan məbləğ geri qaytarılır. Bu halda Mülki Məcəllənin 921-ci maddəsinin tələblərinə riayət edilir.

## 19. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLDİKDƏ SIĞORTA HAQQININ HESABLANMASI

Bu qaydalarda nəzərdə tutulmayan digər hallarda sığortalının və ya sığortaçının təşəbbüsü ilə sığorta müqaviləsinə xitam verilə bilər.

Sığorta müqaviləsinə sığortalının təşəbbüsü ilə xitam verilərsə, müqaviləyə xitam verilən vaxta qədər keçən müddətin sığorta haqqı qısa müddət hesabına görə hesablanır və artıq qalan məbləğ (əgər qalarsa), sığortaçının bu müqavilə ilə əlaqədar çəkdiyi xərcləri çıxmaqla və Mülki Məcəllənin 921-ci maddəsinin tələblərinə riayət etməklə sığortalıya qaytarılır.

Sığorta müqaviləsinə sığortaçının təşəbbüsü ilə xitam verilərsə, müqaviləyə xitam verilən vaxta qədər keçən müddətin sığorta haqqı gün hesabına görə hesablanır və artıq qalan məbləğ (əgər qalarsa), sığortaçının bu müqavilə tlə əlaqədar çəkdiyi xərcləri çıxmaqla və Mülki Məcəllənin 921-ci maddəsinin tələblərinə riayət etməklə sığortalıya qaytarılır.

# DİGƏR MÜDDƏALAR

## 20. MÜLKİYYƏT SAHİBİNİN DƏYİŞMƏSİ

20.1. Sığorta müqaviləsinin qüvvədə olma müddəti ərzində sığortalanmış istilikxana və ya məhsulun mülkiyyət sahibi dəyişərsə sığorta müqaviləsi hüquqi qüvvəsində qalır və sığortalının müqavilə ilə əlaqədar hüquq və vəzifələri yeni mülkiyyət sahibinə keçir. Dəyişiklik zamanı sığortalı və sığortanın mövcudluğunu öyrənən yeni mülkiyyət sahibi vəziyyəti 15 gün müddətində sığortaçıya bildirməlidirlər.

20.2. Sığortaçı dəyişikliyi, yeni mülkiyyət sahibi isə sığortanın mövcudluğunu öyrəndikləri tarixdən etibarən 8 gün müddətdə müqaviləni ləğv edə bilərlər.

20.3. Vaxtında istifadə edilməyən ləğvetmə hüququ qüvvəsini itirmiş hesab olunur.

20.4. Ləğv etmənin hüquqi qüvvəyə mindiyi tarixə qədər keçən müddətin sığorta haqqı gün hesabı ilə hesablanır və artıq qalan məbləğ yeni mülkiyyət sahibinə qaytarılır.

20.5. Sığortalanan yer və məhsulların sahibinin dəyişməsi zamanı ödənilməli olan sığorta haqqı borclarına görə sığortalı və ləğvetmə hüququndan istifadə etməyən yeni mülkiyyət sahibi birlikdə məsuliyyət daşıyırlar.

20.6. Sığortalı vəfat edərsə müqavilə ilə əlaqədar bütün hüquq və vəzifələr yeni mülkiyyət sahibinə keçir.

## 21. SIĞORTA OLUNMUŞ İSTİLİKXANALARIN YERİ VƏ ONUN DƏYİŞDİRİLMƏSİ

Sığorta təminatı, yalnız sığorta müqaviləsində göstərilən yer və ya yerlər üçün etibarlıdır. Sığorta olunmuş istilikxanaların yeri dəyişdirildiyi zaman şərtlərin 9-cu bəndinin müddəaları tətbiq edilir.

## 22. MƏLUMAT VƏ XƏBƏRDARLIQLAR

22.1. Sığortalının məlumat və xəbərdarlıqları sığortaçıya və ya sığorta müqaviləsinin imzalanmasına vasitəçilik edən agentə sifarişli məktub vasitəsilə bildirilir.

22.2. Sığortaçının məlumat və xəbərdarlıqları sığortalının sığorta şəhadətnaməsində göstərilən ünvanına, bu ünvan dəyişmişsə bildirilən son ünvana eyni formada çatdırılır.

22.3. Tərəflərə, imza etdirmək şərtilə, şəxsən təqdim olunan məktublar və ya teleqraf vasitəsilə bildirilən xəbərdarlıq və məlumatlar da sifarişli məktub vasitəsilə bildirilən xəbərdarlıq və məlumatlar səviyyəsində hüquqi qüvvəyə malikdir.

## 23. İŞ SİRRLƏRİNİN GİZLİ SAXLANILMASI

Sığortaçı və onun səlahiyyətli nümayəndələri sığorta müqaviləsinin bağlanması ilə əlaqədar sığortalıya aid öyrənəcəkləri bütün iş sirrlərinin gizli saxlanmamasına görə dəyəcək zərər üçün məsuliyyət daşıyırlar.

**24. MÜBAHİSƏLƏRƏ BAXILMASI VƏ HƏLL EDİLMƏSİ**

Bu sığorta müqaviləsi ilə əlaqədar bütün fikir ayrılıqları ilk növbədə danışıqlar yolu ilə həll edilir. Danışıqlar yolu ilə həll edilməyən məsələlər aidiyyəti məhkəmə tərəfindən həll edilir.

**25. MÜDDƏT**

Sığorta şəhadətnaməsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətlərdə həll edilir.

**26. XÜSUSİ ŞƏRTLƏR**

Sığorta şəhadətnaməsində əsas şərtlərə və bununla əlaqədar olan əlavə şərtlərə (klozlara) zidd olmayan xüsusi şərtlər də yazıla bilər.

**«AzSığorta» ASC**

## İstilikxana sığortası üzrə tarif dərəcələrinin əsaslandırılması

Tarif dərəcələri əsaslandırılarkən əvvəlcə netto-dərəcələr hesablanır. Netto-dərəcələrin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

1) Sığorta hadisəsinin baş verməsi ehtimalı(q) - 0,02;
2) Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (So) - 50 mln manat;
3) Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö) - 17 mln manat;
4) Bağlanılacaq sığorta müqavilələrinin sayı (n) - 200.

Tn,Tə və Tr ilə müvafiq olaraq netto-dərəcəni, onun əsas hissəsini və risк üstəliyini işarə edək. Netto-dərəcənin əsas hissəsi 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

Tə = 100qSö/So = 100.0,02.17000000/50000000 = 0,7 manat.

Risк üstəliyini hesablamaq üçün təminat ehtimalını 0,98 götürək. Bu halda həmin ehtimala uyğun əmsal a=2 olur. Risк üstəliyi aşağıdakı düsturla hesablanır:

1/2 1/2 "r=1,2Tə.a.((1-q)/(nq)) = 0,7.1,2.2.((1-0,02)/(200.0,02)) = 0,8 manat.

n = Tə + Tr = 0,7 + 0,8 = 1,5 manat.

Tarif dərəcəsinin strukturu: netto -dərəcə-70%, yüklənmə-30%.o cümlədən ışlərin aparılması xərcləri-28%, tarif mənfəəti-2%.

Brutto-dərəcəni Tb ilə işarə edək. Onda brutto-dərəcənin hesablanması düsturuna əsasən

Tb = Tn /(1-f) = 1,5/(1-0,3) = 2 manat.

İstilikxana sığortası üzrə tarif dərəcələri istilikxananın quraşdırılması (plastik və ya şüşə) xüsusiyyətlərindən asılı olaraq aşağıdakı həcmlərdə müəyyən edilir:

1. plastik istilikxana halında:1,4%-5%;
2. şüşə istilikxana halında:1,2%-4%.